

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 3 (21.914)

9 yanvar 2018-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 8-də Bosniya və Herseqovinanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bakir Sadoviçin etimadnaməsini qəbul edib.

* * *

Dövlətimizin başçısı həmin gün Ekvatorial Qvineyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Xose Esono Miça Akenqin etimadnaməsini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 8-də Nigeriyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Hamzat İbrahimin etimadnaməsini qəbul edib.

* * *

Prezident İlham Əliyev həmin gün Monqolustanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bold Ravdanın etimadnaməsini qəbul edib.

## 2017-ci ildə muxtar respublikada 10 məktəb binası istifadəyə verilib

***Bu gün Naxçıvan Muxtar Respublikasında təhsil infrastrukturunun yenilənməsi, müasir tədris metodlarının tətbiqi, təlim prosesində yeni texnologiyalardan istifadəyə geniş yer verilməsi, nümunəvi dərslərin keçirilməsi və distant təhsilin reallaşdırılması təhsil sahəsində uğurların qazanılmasına səbəb olmuşdur. Təhsilə, təhsil işçilərinə göstərilən diqqət və qayğının nəticəsidir ki, ümumtəhsil məktəbləri üçün müasir binalar tikilərək istifadəyə verilir, məktəblər ən müasir informasiya texnologiyaları ilə təchiz olunur. 2017-ci ildə də bu iş diqqətdə saxlanılmış, muxtar respublikada 10 məktəb binası istifadəyə verilmişdir.***





Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 20 iyun tarixli "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamından irəli gələn məsələlərin həlli istiqamətində həyata keçirilən tədbirlər nəticəsində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələr təşkil olunur. Belə ki, 2017-ci ildə ümumtəhsil məktəbləri ilə muzeylər arasında 16, Naxçıvan Şahmat Mərkəzi ilə 8, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ilə 13 interaktiv dərs keçilmişdir. Bu dövrdə ümumtəhsil məktəblərinin kitabxana şəbəkələrinin genişləndirilməsi, onların maddi-texniki bazalarının gücləndirilməsi və şagirdlərin dərsliklərlə təminatı da diqqət mərkəzində saxlanılmış, avqust ayında ümumtəhsil məktəblərinə 133 min 729 nüsxə dərslik verilmişdir.

Gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə "Oxunması zəruri olan kitabların Siyahısı" təsdiq edilmişdir. Sərəncama uyğun olaraq bütün təhsil müəssisələrində həmin kitablardan ibarət sərgilər hazırlanmış və təhsil işçilərinin, eyni zamanda tələbə, şagird və müdavimlərin iştirakı ilə bu kitabların mütaliəsinin və müzakirəsinin keçirilməsi təmin edilmişdir.

Elm müəssisələrdə, ali və orta ixtisas məktəblərində çalışan elmi dərəcəli müəllimlər tərəfindən 2017-ci il ərzində muxtar respublikanın ümumtəhsil məktəblərində 1676 saat nümunəvi dərs tədris olunmuşdur. Müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması, əlavə təlim ehtiyaclarının müəyyənləşdirilməsi, müəllimlik fəaliyyətinin stimullaşdırılması və müəllimlərin əməyinin qiymətləndirilməsinin təmin olunması məqsədilə mərkəzləşmiş qaydada növbəti attestasiya imtahanı keçirilmişdir.

Ötən il muxtar respublikanın ümumtəhsil, peşə və orta ixtisas məktəblərində, eyni zamanda məktəbdənkənar tərbiyə müəssisələrində ədəbi-bədii gecələr, şagirdlərin əl işlərindən ibarət sərgilər, bilik yarışları, rəsm və şeir müsabiqələri, inşa yazı işləri, fənn olimpiadaları, hərbi idman oyunları və digər yarışlar keçirilmişdir. Məktəblilərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi də diqqət mərkəzində olmuşdur. Bu sahə üzrə həyata keçirilən tədbirlər, yarışlar, müsabiqələr məktəbli gənclərin ibtidai hərbi hazırlığına, vətənpərvərlik hissinin gücləndirilməsinə müsbət təsir göstərmişdir. Lənkəran şəhərində keçirilən "Şərhəd" hərbi-idman oyunlarının respublika mərhələsində Naxçıvan şəhər 2 nömrəli tam orta məktəbin komandası uğurla çıxış edərək birinci yerə layiq görülmüşdür.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin "İstedad XXI əsr" hazırlıq kursları ilə birgə təşkil etdiyi test-sınaq imtahanlarına muxtar respublikanın bütün ümumtəhsil məktəblərinin II-XI siniflərinin şagirdləri cəlb olunmuşdur. IX-XI siniflərin sınaq imtahanları isə buraxılış imtahanlarının formatına uyğun həyata keçirilmişdir. Bununla yanaşı, Azərbaycan Respublikası məktəblilərinin fənn olimpiadasında 20 şagird qalib gəlmişdir ki, onlardan 2-si qızıl, 5-i gümüş, 13-ü isə bürünc medallara layiq görülüb.

Muxtar respublikamızda bütün qəbildən olan uşaqların təhsili diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın tələblərinə uyğun olaraq 2017-ci ildə ümumtəhsil məktəblərinə 942 sağlamlıq imkanı məhdud uşaq cəlb edilmişdir ki, onların da 88-i birinci siniflərdə təhsil alır. Hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən 24 şagird distant təhsilə cəlb edilmişdir.

Yaradılmış şərait nəticəsində qabaqcıl təhsil mühiti formalaşmış, şagirdlərin təhsilə marağı artmış, ali və orta ixtisas məktəblərinə həm sənədvermə, həm də qəbulun nəticələri ilbəil yaxşılaşmışdır. Belə ki, 2017-ci ilin qəbul imtahanlarında iştirak edən abituriyentlərdən 1735-i ali, 629-u orta ixtisas məktəblərinin tələbəsi adını qazanmışlar. Qəbul imtahanlarının nəticələrinə əsasən 289 nəfər 500-dən yuxarı bal toplamışdır. Yüksək nəticə əldə edərək tələbə adını qazananlardan 3-ü Prezident təqaüdünə layiq görülmüşdür. 2016-2017-ci tədris ilində məktəbi yüksək nəticələrlə başa vuran 15 məzun qızıl, 6 məzun gümüş medala, 113 məzun isə fərqlənmə attestatına layiq görülmüşlər. Qəbul imtahanlarında həmin məzunlar onlara göstərilən etimadı doğruldaraq 500-700 arası bal toplamışlar.

Ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdlərinin muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinə "Açıq qapı" günləri təşkil olunur. Qrafikə uyğun olaraq tədris ilinin sonunadək davam etdirilməsi nəzərdə tutulmuş "Açıq qapı" günlərinin ilkin mərhələsində Naxçıvan şəhər ümumtəhsil məktəbləri şagirdlərinin ali və orta ixtisas təhsili müəssisələrinə ekskursiyaları təşkil olunmuşdur.

Müasir dövrdə peşə təhsili günün tələbinə çevrilmişdir. Muxtar respublikada təhsilin bu pilləsi üzrə hərtərəfli şərait yaradılmış, peşə məktəbləri istifadəyə verilmişdir. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, Təhsil Nazirliyinin tabeliyindəki ilk peşə-ixtisas təhsili müəssisələrində 2017-ci ildə yaradılmış 1 və 3 aylıq qruplardan 3642 müdavim məzun olaraq müvafiq təhsil sənədi almış və istehsalatın müxtəlif sahələrində fəaliyyətə başlamışlar.

Muxtar respublikanın təhsil işçiləri 2018-ci ildə də təhsil sahəsində nailiyyətlərin qazanılmasına çalışacaq, qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirəcəklər.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmasına həsr edilmiş poçt markası və zərf tədavülə buraxılmışdır



***Məlum olduğu kimi, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin 2009-cu ilin oktyabrında Bakı şəhərində keçirilmiş altıncı konfransında qəbul edilmiş qərarla Naxçıvan şəhəri 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunub.***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı il iyunun 2-də imzaladığı Sərəncama əsasən Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılan Təşkilat Komitəsinin həmin il noyabrın 25-də keçirilən ilk iclasında hazırlıqla bağlı görüləcək işlərin istiqaməti müəyyənləşdirilib, Tədbirlər Planının layihəsi müzakirə olunub.

Tədbirlər Planında poçt markası və zərfin buraxılması da nəzərdə tutulub. Artıq Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin sifarişi ilə "Azərmarka" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən hazırlanmış 100 min marka və 100 min zərf muxtar respublikaya gətirilib və yanvar ayının 8-dən etibarən tədavülə buraxılıb. Ölkədaxili və beynəlxalq poçt göndərişlərində istifadə olunması nəzərdə tutulan standartölçülü poçt markasının üzərində "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" loqosunun rəsmi həkk olunmuşdur. Markanın dəyəri 50 qəpikdir. Üzərində "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" loqosunun təsviri olan poçt zərfinin ölçüləri 220 x 112 millimetrdir.



Bundan əlavə, içərisində 12 ədəd marka və 1 ədəd birinci gün zərfi olan və üzərində Haçadağın "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" loqotipinin və "Gülüstan" türbəsinin əks olunduğu 100 ədəd hədiyyə bukleti hazırlanıb.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Muxtar respublikada ekoloji tədbirlər uğurla davam etdirilib

2017-ci ildə muxtar respublika ərazisində ekoloji mühitin qorunması və bərpası sahəsində görülən işlər davam etdirilmiş, keçirilən yaşıllaşdırma aylıqları çərçivəsində 550 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış, 455 mindən çox ağac və gül kolu əkilmişdir. Əkilən ərazilərin 200 hektarını yeni meyvə bağı və yaşıllıqlar, 20 hektarını üzüm bağı, 17 hektarını badam bağı təşkil etmişdir. Meşə fondu sahələrindən 6400 kubmetr quru oduncaq kütləsi tədarük edilərək hərbi hissələrə verilmişdir. Həmçinin bu dövrdə muxtar respublikanın torpaq və iqlim xüsusiyyətlərinə uyğunlaşdırılmış 520 mindən çox meşə və meyvə tingi, həmişəyaşıl ağac, gül və bəzək kolları yetişdirilmişdir.

Ətraf mühitin mühafizəsi və qanunsuz ov hallarının qarşısının alınması məqsədilə reydlər aparılmışdır. Bundan başqa, əhalinin istifadə etdiyi içməli və təsərrüfat sularının mövcud standartlara uyğunluğunun nəzarətdə saxlanılması məqsədilə 65 monitorinq keçirilmiş, su nümunələri götürülərək təhlil olunmuşdur. Yay-qış otlaqlarının, biçənək və örüşlərin, digər torpaq ehtiyatlarının geobotanik tərkibinin, münbitliyinin qorunması, bərpa edilməsi məqsədilə aidiyyəti dövlət orqanları ilə birlikdə müvafiq tədbirlər davam etdirilmişdir.

Muxtar respublika ərazisində ətraf mühitin mühafizəsi tədbirlərinə ictimaiyyətin diqqətinin cəlb edilməsi, maarifləndirilməsi və məlumatlandırılması məqsədilə teleradio verilişləri, radio və qəzet materialları hazırlanmışdır.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

*Müasirləşən bölgələrimiz*

# Şanlı tarixi və bugünkü tərəqqisi ilə qürur duyan yurd yeri – *Sədərək*

***Sədərək rayonu 1990-cı il avqustun 28-də ölkəmizin sərhəd bölgəsinin sosial-iqtisadi inkişafını daha da sürətləndirmək və gücləndirmək məqsədilə, həmçinin ərazinin geostrateji mövqeyi nəzərə alınaraq yaradılıb. Ümummilli lider Heydər Əliyevin "Naxçıvanın qeyrət qalası" adlandırdığı bu rayon Azərbaycanın 3 dövlətlə həmsərhəd olan yeganə inzibati ərazi vahididir. Cənub-qərbdən Türkiyə Cümhuriyyəti, şimal-qərbdən Ermənistan, cənub-şərqdən İran İslam Respublikası ilə həmsərhəd olan rayon Heydərabad qəsəbəsi, Sədərək, Qaraağac və Kərki kənd inzibati ərazi dairələrindən ibarətdir. 1990-cı il yanvarın 16-da Kərki kəndi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildiyindən rayon əhalisi 3 yaşayış məntəqəsində cəmləşib.***






Ata-baba torpaqlarını qayğı ilə əkib-becərən, təknələrini bol və halal çörəklə təmin edən bu yaşayış məntəqəsinin sakinləri Sədərək uğrunda gedən döyüşlərdə uşaqdan böyüyə kimi silaha sarılıb erməni işğalçılarına qarşı mərdliklə döyüşüblər. 1990-1993-cü illərdə Sədərək üzərinə 14 dəfə güclü hücuma keçən erməni silahlı birləşmələrinin qarşısı alınıb. Həmin illərdə Sədərəyin müdafiəsində 108 nəfər şəhid olub. Lakin bütün bunlar əhalinin qətiyyətini sındıra bilməyib.

Hələ 1992-ci ildə ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş aqrar islahatlar Sədərəkdə 1996-cı ildən etibarən daha da sürətləndirilərək, 1999-cu ildə tam başa çatdırılıb. Rayon əhalisi torpaq payları ilə təmin olunub. Kənd təsərrüfatı məhsulları istehsalının həcmini və məhsuldarlığını yüksəltmək üçün özəl təsərrüfatların inkişaf etdirilməsi istiqamətində fermerlərə, torpaq mülkiyyətçilərinə xeyli güzəştlər edilib.

1992-ci ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə Araz çayı üzərində Türkiyə ilə Azərbaycanı birləşdirən "Ümid" körpüsünün istifadəyə verilməsi, gömrük-keçid məntəqəsinin yaradılması da bu rayonun iqtisadiyyatına öz müsbət təsirini göstərib. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən imzalanan dövlət proqramlarında Sədərəyin tərəqqisi ilə bağlı nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi istiqamətində görülən işlər, eləcə də Ali Məclis Sədrinin bu bölgəyə göstərdiyi diqqət və qayğı sədərəklilərdə əzmkarlıq, işgüzarlıq ruhunu daha da yüksəldib. Bunu son illər ərzində muxtar respublikamızın ucqar sərhəd rayonunda əldə olunan nailiyyətlər bir daha sübut edir.

Rayon iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil etdiyindən bu sahənin səmərəliliyini artırmaq üçün böyük həcmdə meliorasiya və irriqasiya tədbirləri həyata keçirilib. Belə ki, əsas su mənbəyi sayılan Bulaqbaşı kəhrizi əsaslı şəkildə təmir olunub, 5 kilometr məsafədən içməli su xətti çəkilib, 7 subartezian quyusu qazılıb, dördpilləli nasos stansiyasında əsaslı şəkildə yenidənqurma işləri aparılıb. Ərazidə 15 bulaq-abidə tikilərək istifadəyə verilib.

Hazırda Sədərək rayonunda 16374 hektara yaxın torpaq sahəsi var. Onun 3581 hektarı əkinəyararlı torpaqlardır. Həyata keçirilən tədbirlər nəticəsində rayonda əkinəyararlı bütün torpaq sahələri əkin dövriyyəsinə daxil edilib. Bu torpaqların 3258 hektarı xüsusi mülkiyyətə verilib. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin Sədərək rayon bazasının istifadəyə verilməsi isə bölgənin becərilməyən digər bərəkətli torpaqlarının da əkin dövriyyəsinə daxil edilməsinə şərait yaradıb.

Ümumiyyətlə, Sədərəkdə görülən işlər muxtar respublikada kənd təsərrüfatı sahəsində həyata keçirilən kompleks tədbirlərin tərkib hissəsidir. Rayonda 98 hektarlıq meyvə bağı da var. Ancaq sədərəklilər bununla kifayətlənmir, ilbəil bağların ərazisini genişləndirirlər. Son ağac əkini mövsümlərində 5 hektar sahədə meyvə bağları salınıb, əkilən sahələrə müntəzəm olaraq aqrotexniki qulluq göstərilib. Rayonda üzümçülük və arıçılıq da xüsusi diqqət göstərilən sahələrdəndir. İndi Sədərəkdə 245 hektar üzüm bağı, 645 arı ailəsi var.

Son illər ərzində regionda aparılan genişmiqyaslı quruculuq və abadlıq tədbirləri nəticəsində bu sərhəd rayonunun da siması tanınmaz dərəcədə dəyişib. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun, Vergilər və Maliyyə nazirliklərinin rayon şöbələri, Kapital Bankın rayon filialı, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sədərək Rayon Şöbəsi, əhalinin sosial müdafiəsi və məşğulluq mərkəzləri, rabitə, qaz istismar idarələri, rayon polis şöbəsi və sair üçün yeni inzibati binalar tikilib. Mübariz, qədirbilən Sədərək sakinlərinin ulu öndərə olan sonsuz hörmət və ehtiramının məntiqi nəticəsi olaraq Heydərabad qəsəbəsində görkəmli dövlət xadimi Heydər Əliyevin əzəmətli abidəsi ucaldılıb. Qəsəbə müasir şəhərsalma ənənələrinə uyğun olaraq tamamilə yenidən qurulub. Rayonda yaşayan hər bir vətəndaşın rifah halının yaxşılaşdırılması ümdə vəzifə kimi qarşıya qoyulub. Bunun nəticəsidir ki, erməni daşnaklarının günahı ucbatından ev-eşiyindən didərgin düşmüş köçkün ailələri və Sədərək uğrunda gedən döyüşlərdə iştirak edərək sağlamlıqlarını itirmiş əlil ailələri yeni yaşayış binaları ilə təmin ediliblər.

Rayonda aparılan tikinti-quruculuq tədbirləri sabahın kamil vətəndaşlarını yetişdirən təhsil müəssisələrindən də yan keçməyib. Rayon mərkəzi sayılan Heydərabad qəsəbəsində 635, Qaraağac kəndində 136 yerlik məktəb binaları əsaslı təmir edilib. Dövlət başçısı İlham Əliyevin iştirakı ilə Sədərək rayonundakı 630 şagird yerlik 2 nömrəli tam orta məktəbin yeni binasının açılışı olub. Hazırda 4 ümumtəhsil məktəbin, 3 məktəbdənkənar müəssisənin fəaliyyət göstərdiyi rayonun təkcə ümumtəhsil məktəblərində 1287 şagird təhsil alır. Ötən tədris ilində bu məktəbləri 77 nəfər bitirib. Onlardan 63 nəfəri ali məktəblərə sənəd verib və nəticədə, 35 nəfər respublikamızın müxtəlif ali məktəblərində təhsil almaq hüququ qazanıb. Rayon məktəblərinin 145 ədəd kompüterlə təmin olunması hesabına hər 9 şagirdə 1 kompüter düşür. Məktəb kitabxanalarının fondu son illərdə latın qrafikası ilə çap olunmuş yeni kitablar hesabına xeyli zənginləşdirilib. Hazırda kitabxanalarda 30 min 858 dərslik, 15 min 846 ədəd bədii ədəbiyyat var.

Əlbəttə ki, bütün bunlar ümumtəhsil məktəblərinin maddi-texniki bazasını daha da gücləndirərək tədrisin səmərə və keyfiyyətinin yaxşılaşmasına şərait yaradıb.

Abad diyar yolundan tanınar. Bu, yüzilliklərin sınağından çıxmış bir məsəldir. Elə Sədərəyə yolu düşənlər bu məsəlin nə qədər yerində söyləndiyinin bir daha şahidi olurlar. Belə ki, nəqliyyatın gediş-gəlişini tənzimləmək məqsədilə mərkəzi və ara yollarda mütəmadi olaraq təmir-bərpa işləri aparılıb. Prezident İlham Əliyevin muxtar respublikaya səfəri çərçivəsində əsas strateji magistrallardan biri olan Naxçıvan-Sədərək yolunun açılışı olub. Ümumi uzunluğu 81,95 kilometr, eni 23 metr, asfalt qatının eni 17,2 metr olan dördzolaqlı yolun kənarlarında xüsusi suötürücülər və arxlar çəkilib, magistralın üzərində bir neçə yolötürücü tikilib. Bu magistral muxtar respublikanın Kəngərli, Şərur və Sədərək rayonlarını birləşdirməklə Böyük İpək Yolunun bir hissəsini təşkil edir. Bir vaxtlar möcüzə kimi görünən qaz xətlərinin evlərə çəkilişi də burada yaşayanların böyük sevincinə səbəb olub. Hamı ucuz və keyfiyyətli olan bu yanacaq növündən istifadə edərək gündəlik məişət qayğılarının böyük bir qismindən azad olub. Hazırda rayonun Heydərabad qəsəbəsindəki, Sədərək və Qaraağac kəndlərindəki mənzillərdə mavi qaz şölələnir.

Yalnız muxtar respublikamıza xarakterik olan xüsusiyyətlərdən biri də rayonlararası telefon danışıqlarının pulsuz olmasıdır. Bu, blokada şəraitində yaşayan regionumuz üçün böyük dövlət qayğısıdır. Sədərək rayonunda da bu, belədir. Qəsəbə ilə kəndlər, o cümlədən Naxçıvan şəhəri ilə digər rayonlar arasında rabitə əlaqəsini daha da yaxşılaşdırmaq məqsədilə bu gün də məqsədyönlü işlər görülür.

Ölkə başçısının bu sərhəd bölgəsinə səfəri zamanı Sədərək Rayon Mərkəzi Xəstəxanası istifadəyə verilib. Zirzəmi ilə birlikdə üç mərtəbədən ibarət 26 çarpayılıq bu səhiyyə müəssisəsində müasir tibbi avadanlıqlar quraşdırılıb. Stasionar, Poliklinika və Təcili yardım şöbələrinin fəaliyyət göstərdiyi xəstəxanada 14 həkim, 20 orta tibb işçisi çalışır. Burada, həmçinin yoluxucu xəstəliklər, pediatriya, doğum və ginekologiya, cərrahiyyə, terapiya bölmələri, laboratoriya, əczaxana, burun-boğaz-qulaq kabineti, fizioterapiya, manipulyasiya, elektrokardioqrafiya və ultrasəslə müayinə otaqları, cərrahiyyə əməliyyatlarının aparılması üçün hər cür şərait yaradılıb.

Bu bir həqiqətdir ki, diqqət olan yerdə tərəqqi labüddür. Doğma Azərbaycanımızın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası, eləcə də Sədərək rayonu əsl vətəndaşlıq yanğısı ilə yenidən qurulub. Məqsədin aydınlığı, niyyətin saflığı sədərəklilərin ürəklərinə sonsuz təpər, qollarına yenilməz güc, qüvvət verib. Bir vaxtlar işğalçı Ermənistanın zəbt etmək istədiyi bu rayon günü-gündən inkişaf edərək düşmən üçün gözdağına çevrilib. Doğma Naxçıvanımızın bu qeyrət qalası bundan sonra da dövlət qayğısı və dəstəyi, əzmkar sakinlərinin səyi ilə durmadan inkişaf edəcək, öz abad, firavan günləri ilə düşmənə meydan oxuyacaq.

**Sərxan İSMAYILOV**
**"Oğuz yurdu" qəzetinin redaktoru**




*İstehsal müəssisələri*

# Muxtar respublikamızda dadlı və ləziz şirniyyat məhsulları istehsal olunur

***"Ölkəmizin inkişafı sahibkarlığın inkişafından asılıdır"**, – deyən ölkə Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi strateji xətt Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. Belə ki, sahibkarların hərtərəfli fəaliyyətinə şərait yaradılır, yeni istehsal və xidmət sahələrinin sayı artır. Sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması və genişləndirilməsi məqsədilə dövlət maliyyə dəstəyi göstərilir, idxaləvəzləyici və ixracyönümlü məhsul istehsalına üstünlük verilir. Bu da, təbii ki, özəl sektorun ümumi daxili məhsuldakı payının ilbəil artması ilə müşahidə olunur. Sahibkarlığın inkişafı üçün yaradılmış əlverişli şəraitin nəticəsidir ki, bu gün muxtar respublikada 368 növdə məhsul istehsal edilir, 344 növdə məhsula olan tələbat isə tamamilə yerli istehsal hesabına ödənilir.*

"Ləzzət Biskvit və Şokolad Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyəti də öz məhsulları ilə alıcıların rəğbətini qazanıb. Onu da bildirək ki, cəmiyyətə Naxçıvan şəhərində sənaye şəhərciyi üçün ayrılmış ərazidə ayrı-ayrı iş otaqlarından ibarət inzibati bina, istehsal sahəsi, yeməkxana və digər yardımçı binalar tikilib istifadəyə verilib. 2011-ci ildən vafli istehsalı ilə fəaliyyətə başlayan müəssisədə 2013-cü ildə peçenye istehsalı sahəsi də yaradılıb. Müəssisədə istehsal olunan məhsulların xammal ehtiyatı, əsasən, daxili imkanlar hesabına ödənilir. Bu da aqrar sektorun inkişafına, eləcə də torpaq mülkiyyətçilərinin alıcı problemi ilə üzləşməməsinə öz müsbət təsirini göstərir.

Fabrikdə sanitar-gigiyenik və texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunur. Burada fəaliyyət göstərən istehsal sahələrində Türkiyənin müxtəlif firmalarının istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb. Müəssisədə şəkər dəyirmanı da fəaliyyət göstərir. Burada şəkər üyüdülür, kirşan halına salınır. Sonra mikser avadanlıqlarda reseptə uyğun olaraq müxtəlif qatqı maddələri ilə qarışdırılır, hazır kremin saxlanması üçün nəzərdə tutulan ayrı-ayrı çənlərə yığılır. Vafli və peçenye istehsalı üçün xəmir hazırlanması da avtomatik olaraq yerinə yetirilir və istehsal xəttinə ötürülür. Qəliblərə tökülən xəmir müəyyən temperaturda bişirilir, ayrı-ayrı mərhələlərdə kremlər əlavə olunmaqla tunel soyuduculardan keçdikdən sonra müəyyən ölçülərdə kəsilir. Bazar iqtisadiyyatının tələblərinə uyğun yüksəkkeyfiyyətli məhsul istehsalı ilə yanaşı, məhsulun quruluşunun, dizaynının yüksək səviyyədə olması və ekoloji cəhətdən təmiz şəraitdə qablaşdırılması da diqqət mərkəzində saxlanılır. Gündəlik istehsal gücü 14 ton olan müəssisədə vanilli, çiyələkli, bananlı, kakaolu, südlü tərkibdə, "Tıq-tıq xanım", "Şokolay" adları ilə şokoladlı olmaqla, 25 çeşiddə vafli istehsal olunur. "Naxçıvan", "Məktəbli", "Çay vaxtı", "Möminə xatın", "Yubiley" və digər adlarda 16 çeşiddə istehsal edilən peçenye 5 kiloqramadək nəfis tərtibatla bəzədilmiş taralarda qablaşdırılır. Hazır məhsulun üzərində istehsal tarixi, saxlanma şəraiti və istifadə müddəti göstərilir ki, bu da qida məhsulları istehsalında mühüm amildir. Həmçinin müəssisədə Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlarla təmin olunmuş laboratoriya fəaliyyət göstərir. Burada xammal və hazır məhsulların keyfiyyətinə ciddi nəzarət olunur. Hazır məhsullar Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən qeydiyyata alınmış "Nati" əmtəə nişanı ilə müəssisənin balansında olan maşınlarla Naxçıvan şəhərində və ayrı-ayrı yaşayış məntəqələrində fəaliyyət göstərən ticarət obyektlərinə paylanılır.

Məlumat üçün onu da deyək ki, Naxçıvan şəhərində biznes forumların, işgüzar görüş və konfransların keçirilməsini, həmçinin yerli məhsulların tanıdılması və satışının təşkilini təmin etmək məqsədilə yaradılmış Biznes Mərkəzin xidmətlərindən adıçəkilən müəssisə də səmərəli istifadə edir. Bunun bəhrəsidir ki, bir vaxtlar başqa ölkələrdən peçenye və vafli idxal edən Naxçıvan indi "Nati" tanıtım nişanı ilə belə şirniyyat məhsullarını nəinki ölkəmizin digər regionlarında satışa çıxarır, həm də İran İslam Respublikasına və Gürcüstana ixrac edir.

**Ramiyyə ƏKBƏROVA**

***Təkcə yaşadığı Şərur rayonunun deyil, muxtar respublikanın da ictimai həyatında fəal ziyalı kimi tanınan Yeganə Məmmədovanın fəlsəfə doktoru alimlik dərəcəsi aldığını eşidəndə akademik İsmayıl Hacıyevin bir qənaətini xatırladım: Muxtar respublikada elmin, təhsilin inkişafına böyük diqqət və qayğının nəticələrini hər addımda görmək olar. Əgər 15-20 il bundan əvvəl regionda fəlsəfə və ya elmlər doktorları barmaqla sayılırdısa, həmçinin onlar ali və orta ixtisas məktəblərində çalışırdılarsa, bu gün artıq orta məktəblərimizdə dərs deyən müəllimlər də elmi tədqiqatlar aparır, dissertasiya müdafiə edirlər...***

*Müasirimiz*

# Məndədir, səndədir müəllim ömrü

Haqqında söhbət açacağımız Yeganə Məmmədova Şərur rayonunda anadan olub. Aşağı Yaycı kənd tam orta məktəbini bitirib. Ali təhsilini indiki Naxçıvan Dövlət Universitetində alıb. 2001-ci ildə həmin məktəbdə direktor vəzifəsinə irəli çəkilib. Muxtar respublikada təhsilin inkişafındakı səmərəli xidmətlərinə görə "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adına layiq görülüb. Dördüncü və beşinci çağırış Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə deputat seçilib.

Yeganə xanımın qısaca tərcümeyi-halı bunlardan ibarətdir. Ancaq layiq görüldüyü təltiflərin, etimad göstərildiyi vəzifələrin arxasında onun öz sənətinə və vəzifəsinə hörmət, məsuliyyət hissi, dərs dediyi şagirdlərə hərtərəfli bilik vermək və nəcib mənəvi amallar aşılamaq, onları dövlətimizə, dövlətçiliyə, Vətənimizə sədaqət ruhunda tərbiyə etmək kimi məsələlər dayanır. O, bunların öhdəsindən gəlmək üçün səy və bacarığını əsirgəmir. Keçdiyi ömür yoluna baxarkən şərəfli müəllim adı daşıdığından zövq alır.

***Öz sözü:*** – Xalqımız hər zaman müəllimə ucalıq, ziyalılıq və mənəvi saflıq rəmzi kimi baxıb, bu sənət sahiblərinə böyük hörmət və yüksək ehtiram göstərib. Tutduğu vəzifəsindən asılı olmayaraq, hər bir insan cəmiyyətdəki mövqeyinə, şəxsiyyət kimi formalaşmasına, qazandığı biliklərə görə özünü məhz müəllimlərinə borclu sayır. ***"Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram"***, – deyən ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə müəllim əməyini yüksək qiymətləndirir, diqqət və qayğısını onlardan əsirgəmirdi. Çünki onlar insanı kamillik zirvəsinə qaldırmaq kimi böyük bir vəzifəni – gənclərin təhsili, təlim-tərbiyəsi, cəmiyyət və dövlət üçün yararlı vətəndaş kimi yetişdirilməsi missiyasını həyata keçirirlər. Müdriklərin belə bir sözü yadıma düşür: "Hər bir millətin mədəni tərəqqisi təhsillə, təhsilin tərəqqisi isə müəllimlərlə bağlıdır". Bu baxımdan yanaşaraq qeyd etməliyəm ki, orta məktəb təkcə bilik, savad verməməlidir. Məktəb, müəllim qarşısında duran ən böyük vəzifə əsl vətəndaş tərbiyə etməkdir. Müəllim həmişə əsl insan, yaxşı məzun yetişdirməyə çalışır. Aqillər deyiblər ki, uşaq beyni ağ vərəqə bənzəyir. Oraya nə yazılsa, əbədi qalar. Demək, sağlamfikirli, aydındüşüncəli, cəmiyyət üçün gərəkli övladlar böyütmək üçün o ağ vərəqə xeyirxahlıq, vətənpərvərlik, saflıq, səmimiyyət bildirən hissləri hopdurmalıyıq. Bütün bunları öyrənmək üçün bir məkan – məktəb, öyrətmək üçün isə bir insan var – müəllim. Müəllim tərbiyə verən, öyrədən, eyni zamanda öyrənəndir. Bu da bir həqiqətdir ki, təhsilin hərtərəfli yüksəlişində, təlim-tərbiyə prosesində qarşıda duran vəzifələrin uğurla həyata keçirilməsində təkcə məktəbin, təhsil ocağında çalışan pedaqoji heyətin əməyi kifayət deyil. Uşaqların gələcəyin savadlı mütəxəssisi, layiqli vətəndaşı kimi formalaşması üçün bütün cəmiyyət maraqlı olmalıdır, xüsusən də məktəblə ailənin birgə fəaliyyəti təmin edilməlidir. ***"Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır"***, – deyən ulu öndərimizin müdrik tövsiyəsi belədir ki, əsl pedaqoq olmaq, şagirdlərə hərtərəfli bilik vermək, onları nəcib mənəvi amallara sədaqət ruhunda yetişdirmək üçün müəllimin özü bu yüksək keyfiyyətləri dərindən mənimsəməli, şagirdlərinə nümunə olmalıdır.

Yeganə Məmmədovanın bu fikirlərinin təsdiqini direktoru olduğu məktəbdə bütün çalarları ilə görmək mümkündür.

2008-ci ildə istifadəyə verilən 224 şagird yerlik məktəbdə hazırda 116 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 17 müəllim məşğul olur. Bu təhsil ocağı muxtar respublikanın ön sırada gedən məktəbi kimi tanınıb. Təhsil ocağında müasir tədris üsullarına geniş yer verilməsi, informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə edilməsi, valideynlərlə sıx əlaqə, məktəbdaxili bilik yarışlarının, viktorinaların, kitab müzakirələrinin, kəndin, rayonun adlı-sanlı yetirmələri, müharibə veteranları, ali məktəblərdə təhsillərini davam etdirən məzunlarla görüşlərin təşkili təhsil ocağının başlıca iş prinsipləridir və qazanılan uğurlarda bu tədbirlər əsas rol oynayır. Təhsil prosesində, məktəbdənkənar və sinifdənxaric tədbirlərdə müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin hər bir azərbaycanlı üçün örnək olan mənalı həyat yolu və siyasi fəaliyyətinin, milli-mənəvi dəyərlərimizin, şərəfli tariximizin öyrənilməsi ön plana çəkilir. Bu işdə məktəb kitabxanasının rolu da qeyd olunmalıdır. Kitabxanada Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamı ilə təsdiq edilmiş oxunması zəruri olan kitablardan ibarət sərgi təşkil olunub, "Nizaminin hikmət və nəsihətləri"nin müzakirəsi keçirilib.

Rayon Təhsil Şöbəsinin əməkdaşı İbrahim Yusifov deyir ki, bu məktəb dünən nail olduğu nəticə ilə arxayınlaşmır, bunu son hədd hesab etmir, bundan da böyük uğurlar qazanmağa çalışır. Təhsilin səviyyəsinin yüksəldilməsinə və əsl vətəndaş yetişdirilməsinə məhz bu cür yanaşma ilə nail olmaq istəyən kollektivin göstəriciləri getdikcə artır. Ötən il məktəbin 11 məzunu ali və orta ixtisas məktəblərinin tələbəsi adını qazanıb. Təhsil ocağında belə bir ənənə də formalaşdırılıb ki, il ərzində onlarla bir neçə dəfə görüş təşkil edilir. Tələbələrlə söhbətlər şagirdlərin elmə, təhsilə marağını daha da artırır, tələbə olmaq üçün ciddi çalışmağa, yüksək bilik almağa sövq edir...

Təbii ki, məktəbin iş prinsipinin əsasında Yeganə Məmmədovanın kollektivin gücündən bacarıqla istifadə etməsi durur.

Bu da qeyd olunmalıdır ki, Yeganə müəllimənin işi məktəblə məhdudlaşmır. O, rayonda fəal ictimaiyyətçi kimi tanınır. Belə ki, Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı Qadınlar Şurasının sədri kimi üzərinə düşən vəzifəni ləyaqətlə yerinə yetirməyə çalışır.

***Öz sözü:*** – Bu gün Azərbaycan qadını tək ailə ocağını deyil, həm də cəmiyyətin ağırlıqlarını çiynində daşıyan qadındır. Ömrü boyu qadına böyük hörmət, dərin ehtiram bəsləyən ulu öndərimiz cəmiyyətdə qadının rolunun artmasına diqqətlə yanaşırdı. Bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda dövlət qadın siyasəti uğurla həyata keçirilir.

Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı Qadınlar Şurasının sədri kimi üzərinə düşən vəzifənin yerinə yetirilməsində şura üzvlərilə birgə fəaliyyəti öz nəticəsini verir. Üzvlər idarə, müəssisə, təşkilatlarda olur, qadınlarla görüşüb onların problemləri ilə maraqlanır, dövlətimizin qadınların cəmiyyətdəki fəal roluna yaratdığı şəraitdə qarşıda duran vəzifələr barədə söhbətlər aparırlar.

Söhbətimizin əvvəlində qeyd etmişdik ki, Yeganə Məmmədova dördüncü və beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı seçilib. Bu da onun rayon ictimaiyyəti arasında qazandığı nüfuzun ifadəsidir...

...2017-ci ilin may ayı onun tərcümeyi-halında özünəməxsus yer tutan bir məqamla yadda qalıb. Yeganə Məmmədova akademik İsmayıl Hacıyevin elmi rəhbərliyi, tarix üzrə elmlər doktoru, professor Oqtay Sultanovun, tarix üzrə fəlsəfə doktoru Elbrus İsayevin opponentliyi ilə "Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında ümumtəhsil məktəblərinin inkişaf tarixi: 1993-2015-ci illər" mövzusunda dissertasiya müdafiə edib. Yeganə Məmmədovanın bu mövzuya müraciətini də onun bütün qəlbi ilə təhsilə bağlılığının ifadəsi kimi qiymətləndirmək olar. O, dissertasiyasında bu illərdə muxtar respublikada təhsilin inkişafı üçün həyata keçirilən tədbirlərin mahiyyətini araşdırmağa nail olub, bu istiqamətdə görülən işləri sistemləşdirib.

Söhbətimiz zamanı ona bir sualla müraciət etdik:

*– Müəllim sənətini seçməyinizə peşman deyilsiniz ki?*

– Cəmiyyətin inkişafını elmsiz, biliksiz təsəvvür etmək mümkün deyil. Bu gün ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda təhsilin inkişafı xüsusi əhəmiyyət verilən başlıca sahələrdən biridir. Müəllimlərin əməyinin qiymətləndirilməsinin daim diqqətdə saxlanılması isə məhz bu peşə sahiblərinin böyük bir vəzifəni yerinə yetirməsi ilə bağlıdır. Sevinirəm ki, mənim də əməyim öz qiymətini alıb. Bu isə sevdiyim müqəddəs müəllimlik sənətinə daha ürəkdən bağlanmağıma, böyük məsuliyyət hissi ilə çalışmağıma səbəb olub. Qazandığım bütün uğurlarda pedaqoji kollektivimizin böyük əməyi var. Kollektiv üzvlərinin ən böyük amalı ondan ibarətdir ki, dərs dedikləri şagirdlərin "Fəxr edirəm ki, mən də azərbaycanlıyam", – deməyə mənəvi haqları çatsın.

**Muxtar MƏMMƏDOV**

*Yeni nəşrlər*

## "Dədə Qorqud yurdu – Naxçıvan" tarixi-coğrafi və etnoqrafik atlas"ı üç dildə nəşr edilib



*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına əsasən AMEA Naxçıvan Bölməsi tərəfindən hazırlanan "Dədə Qorqud yurdu – Naxçıvan" tarixi-coğrafi və etnoqrafik atlas"ı çap olunub.*

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatla çap edilən atlasın müəllifləri akademik İsmayıl Hacıyev (məsul redaktor), AMEA-nın müxbir üzvləri Fəxrəddin Səfərli, Əbülfəz Quliyev, Qadir Qədirzadə, Vəli Baxşəliyev, tərtibçiləri filologiya üzrə fəlsəfə doktorları Firudin Rzayev, Asəf Orucov, Əkrəm Hüseynzadə, Rəşad Zülfüqarov, Nazim Bababəyli, Cəfər Əliyev və Fəxrəddin Eylazovdur.

Azərbaycan, ingilis və rus dillərində 460 səhifədən ibarət olan atlasa 51 tarixi-coğrafi söz, 239 ifadə və deyimi özündə əks etdirən xəritələr daxil edilib. Fundamental nəşrdə Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanlarının Naxçıvanla bağlılığı sistemli olaraq araşdırılıb. Atlas üzərində iş aparılarkən daha çox etnoqrafik məsələlərə diqqət yetirilib. Belə ki, oğuzların təsərrüfat həyatı, maddi-mədəniyyəti və bunların Naxçıvanda izləri, dastanda işlədilən geyim və bəzək adları, onların yemək və içki növləri, dastanda adıçəkilən sənətlər, əkinçilik və maldarlıq sahələri, idarəçilik sistemi, ailənin idarəolunması, dini inanclar öz əksini tapıb.

Akademik İsmayıl Hacıyevin atlasda yer alan "Kitabi-Dədə Qorqud" dastanı, onun Naxçıvanla bağlılığı" adlı irihəcmli məqaləsində ümummilli lider Heydər Əliyevin ***"Kitabi-Dədə Qorqud" dastanı bütün türk dünyasına məxsusdur, amma onun vətəni Azərbaycandır, sahibi Azərbaycan xalqıdır, müstəqil Azərbaycan dövlətidir"*** sözləri xatırlanaraq qeyd olunur ki, ulu öndər dastanların dünya miqyasında təbliği və Azərbaycanda adının əbədiləşdirilməsi, əks etdirdiyi vətənpərvərlik ideyalarının genişləndirilməsi üçün "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illiyi haqqında" 1997-ci il 20 aprel tarixdə Fərman imzalayıb. Məqalədə ölkə Prezidenti İlham Əliyevin imzaladığı "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" 2015-ci il 20 fevral tarixli Sərəncamın da əhəmiyyətindən bəhs olunur. Diqqətə çatdırılır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 25 iyul tarixli Sərəncamı ilə "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin Naxçıvan Muxtar Respublikasında qeyd edilməsi ilə bağlı Tədbirlər Planı təsdiq edilib. Tədbirlər Planına uyğun olaraq Naxçıvan şəhərində "Naxçıvanda Dədə Qorqud" beynəlxalq elmi simpoziumun keçirilməsi, professor Səfərəli Babayevin "Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri" monoqrafiyasının yenidən nəşr olunması, "Kitabi-Dədə Qorqud" və Naxçıvan" televiziya filminin çəkilməsi, bu mövzuda açıq dərslərin, dəyirmi masaların, kütləvi informasiya vasitələrində verilişlərin və qəzet materiallarının hazırlanması təşkil edilib.

Akademik İsmayıl Hacıyev "Kitabi-Dədə Qorqud" dastanlarının Naxçıvanla bağlılığından bəhs edərək burada baş verən hadisələrin, bir sıra boylarda adıçəkilən Qaraçuq, Əlincə qalası, Dərəşam, Şərur (Şəruk) kimi coğrafi adların Naxçıvan ərazisində olduğunu bildirir. Qeyd olunur ki, Naxçıvan ərazisində "Kitabi-Dədə Qorqud" dastanında ifadə olunan çoxsaylı yer-yurd adlarının qeydə alınması bu regionun qədim Oğuz yurdu, Azərbaycan torpağı olduğunu təsdiqləyir.

Göstərilir ki, Naxçıvan diyarı "Kitabi-Dədə Qorqud" dastanında baş vermiş hadisələrin coğrafiyasında mühüm rol oynamış, dastandakı etnoqrafik materialların böyük əksəriyyəti Naxçıvan ərazisində yaşayan Azərbaycan türklərinin məişətində, mədəniyyətində, təsərrüfat həyatında, dini inanclarında, deyim tərzlərində və başqa sahələrdə işlədilən etnoqrafik materiallarla üst-üstə düşür.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Ali təhsil ocağının kollektivi Bəhruz Kəngərli Muzeyində olub

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamından irəli gələn vəzifələr Naxçıvan Dövlət Universitetində də uğurla icra olunmaqdadır. Universitet tərəfindən "Muzey günləri" çərçivəsində muxtar respublikada fəaliyyət göstərən müxtəlif muzeylərə ekskursiyalar təşkil edilir, əməkdaşlar həmin mədəniyyət müəssisələri ilə yaxından tanış olurlar. Ali təhsil ocağının kollektivi bu dəfə Bəhruz Kəngərli Muzeyində olub.

Muzeylə tanışlıq zamanı bildirilib ki, teatr rəssamlığı, qrafika və digər janrlara müraciət edən, portret janrında dəyərli əsərlər yaradan Bəhruz Kəngərli həyatı boyu mədəniyyətimizin inkişafı naminə çalışıb. Görkəmli rəssam doğma Vətəninin gözəlliklərini tərənnüm edib. Onun kömür, karandaş, akvarel və yağlı boya ilə müxtəlif janrlarda yaratdığı 500-ə yaxın əsəri indi də incəsənət muzeylərinin dəyərli eksponatları sırasındadır. O, dövrünün görkəmli şəxslərinin rəsmlərini çəkib, portret janrında qiymətli əsərlər yaradıb. Azərbaycanlıların başına gətirilən müsibətləri, ermənilər tərəfindən doğma yurdundan zorla qovulmuş soydaşlarımızın taleyini əks etdirən "Qaçqınlar" silsiləsinə daxil olan əsərləri dəyərli nümunələrdir.

Cəmi 30 il ömür sürən, maddi çətinliklərə baxmayaraq, əsərlərini sərgiləməklə kasıb ailələrin uşaqları üçün məktəb pulu toplayan, onların təhsil almasına köməklik göstərən bu böyük sənətkar həm də Azərbaycan xalqının ilk realist rəssamı kimi tanınır.

Vurğulanıb ki, görkəmli rəssamın irsinə göstərilən böyük dövlət qayğısının nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2001-ci il 22 may tarixli Sərəncamı ilə Naxçıvan şəhərində Bəhruz Kəngərli Muzeyi yaradılıb. Muzeyin açılış mərasimində iştirak edən ulu öndərimiz Heydər Əliyev Bəhruz Kəngərlinin yaradıcılığına yüksək qiymət verərək deyib: *"Bəhruz Kəngərlinin əsərləri Azərbaycan rəssamlıq sənətinin, mədəniyyətinin ən dəyərli nümunələridir"*. Rəssamın Azərbaycan Milli İncəsənət Muzeyinin fondunda saxlanan bir çox əsərlərinin surəti çıxarılaraq Bəhruz Kəngərli Muzeyinə verilib, ilk dəfə olaraq rəssamın əsərlərinin tam külliyyatı albom-kataloq şəklində nəşr olunub. Eyni zamanda muxtar respublikada yubiley münasibətilə poçt markası buraxılıb, görkəmli rəssamın həyat və fəaliyyətinə həsr olunmuş sənədli film hazırlanıb və Bəhruz Kəngərli Muzeyinin yerləşdiyi bina yenidən qurulub, 2013-cü ildə istifadəyə verilib.

Muzey uzun illərdir ki, Naxçıvan ictimaiyyətinə və Bəhruz Kəngərli sənətini sevənlərə xidmət göstərir. Bu gün muzeydə realist rəssamın zəngin irsinə aid yüzlərlə eksponat mühafizə edilir.

Sonra muzeylə tanışlıq olub, buradakı eksponatlar, tanınmış rəssamın əsərləri ilə bağlı ziyarətçilərə ətraflı məlumat verilib.

**Səadət ƏLİYEVA**

Etnoqrafiyamız

## Xalqımıza məxsus çeşidli süd məmulatları öz dadı-tamı ilə də bir-birindən fərqlənir

*Süd məhsulları çox qədim zamanlardan insanların qidasında mühüm yer tutmuşdur. İnsanlar süddən həm də müxtəlif məmulatlar hazırlayırlar. Süd məmulatları da özlüyündə iki qismə ayrılır: gündəlik qida rasionunda istifadə edilənlər, qış azuqəsi kimi tədarük olunanlar.*

İnsanlar, əsasən, qoyun, keçi, inək, camış südlərindən istifadə etmişlər. Lakin bəzi bölgələrdə və ya digər xalqlarda at və dəvə südündən də istifadə olunmuşdur.

Xalq arasında süd və süd məhsullarına "ağartı" deyirlər. Tarix boyu əhali ən çox qoyun və keçi südündən istifadə edibdir. Bunun səbəbi xırdabuynuzlu heyvanların yem tələbatının digərlərinə nisbətən az olması, ilin çox vaxtı təbii otlaqlarda otarılması, keçilərin, adətən, iki bala verib tez artmasıdır. Lakin bir faktı da qeyd edək ki, təbii otlarla normadan artıq qidalanan heyvanlar həmin ərazidə ekoloji tarazlığın pozulmasına səbəb olur.

Yeni doğmuş heyvanın ilk südü "ağuz südü", "şirə" adlanır. Adından da göründüyü kimi, ağuz südünün tərkibində şəkərlilik çox olur. Yeni doğulan bala ağuz südündən az da olsa, yeməli, "mayalanmalı"dır. Bala ağuz südündən artıq yeyərsə, bağırsaqları quruyur, bu, bəzən ölümlə nəticələnir, buna "şirə vurdu", "şirəyə düşdü" deyirlər. Bəzən yeni doğan heyvanların südü olmadıqda, balanı bir neçə gün adi südə yumurta sarısı qataraq yemləyirlər.

***Suluq (qoux).*** Köçmə elat tayfaları, çöl şəraitində olan çobanlar ağuz südünü sağaraq suluq hazırlayardılar. Suluq hazırlamaq üçün ətənənin üzərində olan sulu pərdənin (suluq adı da buradan götürülmüşdür) içərisinə ağuz südü doldurub, ağzını bağlayır, ocağın közündə bişirirlər.

***Şanı.*** Naxçıvanda ağuz südündən hazırlanan yeməklərdən biri də şanıdır. Azərbaycanın bəzi bölgələrində buna "şan-şan", "maxarani" də deyirlər. Şanı (şamı) hazırlamaq üçün ağuz südünə un əlavə edib, qatı horra alınana qədər qarışdırılır. Tavada, çöl şəraitində yağlanmış sac üzərində (hər şanı təxminən bir-iki xörək qaşığı miqdarında olmaqla) qızardırlar. Naxçıvanda şanını bişmiş kartof əzməsi və çiy yumurta qataraq da bişirirlər.

***Kətəməz-kələkey.*** Ağuz südü bişirilən zaman tərkibində şirə çox olarsa, pendir kimi bərkiyib kələkey (kələkə) alınır. Bəzi bölgələrdə buna kətəməz də deyirlər. Ağuz südü çox olarsa, israf olmasın deyə, bişirilən kələkeyi uzun müddət saxlamaq mümkün olmadığı üçün qohum-qonşuya paylarlar.

***Bulama.*** Ev şəraitində ağuz südündən ən çox hazırlanan ağartı məhsulu bulamadır. Maraqlıdır ki, "Azərbaycan dilinin izahlı lüğəti"ndə, "bulama" sözü təzə doğan heyvanlardan ilk günlərdə sağılan süd kimi izah olunur. "Azərbaycan etnoqrafiyası"nda isə yazılır ki, qoyun bala verdikdən iki-üç gün keçəndən sonra ondan bulama sağılır.

Əslində isə bulama hazırlanan süd məmulatıdır. İlk günlər qatı olduğu üçün ağuz südünə əlavə süd qatıb, qaşıqla bulaya-bulaya bişirirlər. Sonrakı iki-üç gündə isə südün şirəliliyi azaldığı üçün südü adi qaydada bişirirlər. Bulama bişib soyuduqdan sonra xama kimi qatı və yağlı olur. Bağırsaqyumşaldıcı xassəyə malikdir.

***Qatıq.*** Süddən hazırlanan məmulatlardan biri də qatıqdır. Qatıq hazırlamaq üçün süd bişirilir. Bişirilən süd 30-35 dərəcəyə qədər soyudulur. İçərisinə müəyyən qədər çalası (qatıq) vurulub qarışdırılır. Üstü basdırılır ki, tədricən soyuyub bərkisin. Üstü açıldıqdan sonra sərin yerə qoyulur ki, qıcqırıb turşumasın. "Azərbaycan etnoqrafiyası"nda yazılmışdır ki, süd isti yerdə qaldıqda və ya ildırım vurduqda özündən uyuşaraq qatığa çevrilir, çox sulu və turş olan belə qatığa "cortdan" və ya "şeytan qatığı" deyilir.

***Cortdan.*** Tumbul kəndində 76 yaşlı Qəndab nənə cortdanın hazırlanması ilə bağlı bunları dedi: – Nehrə ayranını eyməyə (torbaya) töküb acı suyunun çıxmağını gözləyirlər. Sonra üzərinə təzə uyuşan qatıq əlavə edilir. Buna "cortdan" deyirlər və qurutun hazırlanmasında istifadə edilir.

Qatıq hazırlamaq üçün çalası ilə yanaşı, bitkilərdən də istifadə olunur. Culfa rayonunun Boyəhməd kənd sakini 69 yaşlı Xeyrulla Allahverdiyevin dediyinə görə, çalası olmadıqda quzuqulağı, kəklikotu və buğdanı əzir, üzərinə su əlavə edib bir gün saxlayır, sonra onunla qatıq çalırlar.

***Dovğa.*** Qatıqdan dovğa və ya qatıqaşı bişirilir. Dovğa bişirmək üçün qatıq ayran halına salınır. Düyü, noxud, yumurta və müxtəlif göyərti vurulub bulayaraq bişirilir. Bəzən dovğa içərisinə kiçik küftə vurularaq da hazırlanır.

***Qatıqlama.*** Dovğaya nisbətən bərk olur. Qatıqlamada göyərti, pərpərən, pazı yarpağı, salmança (unnuca), ispanaq və sair qaynadılır, sonra üzərinə sarımsaqlı qatıq əlavə edilir.



***Qatıqaşı.*** Qatıqaşı dovğaya oxşasa da, hazırlanma qaydası fərqlidir. Qatıqaşı hazırlanan zaman göyərti ilə düyü qaynadıldıqdan sonra üzərinə qatıq əlavə olunur.

***Ovduq.*** Naxçıvanda yayda sevilən yeməklərdən biri də ovduqdur. Qatığa su qatılaraq ayran edilir. Lazımi qədər duz vurulur. İçərisinə şüyüd, göy soğan, reyhan və gülbəsər (xiyar) xırda-xırda doğranaraq qarışdırılır. Quru lavaş ovularaq əlavə edilir.

***Qaymaq və xama.*** Qatıq üzlü və üzsüz olur. Südü bişirib və ya çiy halda geniş və dayaz qabda soyudurlar. Onun üzərində əmələ gələn ilk yağa (nazik təbəqəyə) "narın üz" deyirlər. Narın üz daha qiymətli, ləzzətli hesab olunur. Aşıq Ələsgər də "Narın üz" təcnisində belə deyir:

*Ləzzət verər bal qatanda qaymağa,*
*Onlardan da şirin olar narın üz.*

Bəzən köhnə südün üzünü yığıb, təzə südə qataraq qatıq çalırlar. Buna "xama qatığı" deyilir. Bu süd məmulatı əvvəllər süd maşını (seperator) olmadıqda bu üsulla alınardı.

Yeri gəlmişkən, istər süd məmulatlarının üzərindəki yarlıqlarda, istər "Azərbaycan dilinin izahlı lüğəti"ndə, istərsə də "Rusca-azərbaycanca lüğət"də xama ilə smetanı eyniləşdirirlər. Bəzən isə smetanı ruscaya xamanı isə bu sözün Azərbaycan dilinə tərcüməsi kimi verirlər. Toplanmış çöl materiallarına görə, bunlar ayrı-ayrı süd məmulatlarıdır. Seperatorda duru çəkilmiş xamadan qatıq çalınır. Yuxarıda qeyd etdiyimiz kimi, bu, xama qatığıdır (smetan). Xama isə, sadəcə, bişirilir. Ruslar isə buna "slivka" deyirlər.

Əvvəllər seperator olmadığı üçün qatığı eyməyə töküb süzərdilər. Bu cür qatığa "qara qatıq" deyərdilər. Eymədə qatıq dəyməli idi, əks halda, yağ yaxşı ayrılmaz. "Qara qatığı" nehrədə çalxalayıb kərə və ayran əldə edərdilər. Kərəni əridib "sarı yağ", ayranı isə çürüdüb "şor" alırdılar.

***Lor.*** Loru pendirin suyundan hazırlayırlar. Hazırlanma texnologiyası şor kimidir, lakin lorun tərkibində ağartı qalmadığına görə şordan aşağı keyfiyyətdədir. El arasındakı "lornan şora fərq yoxdur" deyimi də buradan yaranıb.

***Kəsmik.*** Lüğətlərdə bu məmulat haqqında da düzgün məlumat verilmir. "Rusca-azərbaycanca lüğət"də "tvoroq" sözünün mənası – kəsmik, süzmə, şor kimi verilmişdir. Lakin şor və kəsmik ayrı-ayrı süd məmulatlarıdır. "Azərbaycan dilinin izahlı lüğəti"ndə "südü qıcqırdaraq zərdabı çıxarılmaqla alınan ağartının kəsmik olduğu" yazılmışdır. Lakin yuxarıda da qeyd etdiyimiz kimi, südü qıcqırdanda ya qatıq, ya da cortdan alınır. Süzmə qatıq isə başqadır. Adi qatığı, ya da qalıb turşumuş qatığa su qataraq parçadan tikilmiş torbaya töküb süzürlər. Su qatdıqda qatığın turşluğunu yuyub aparır. Kəsmiyi isə südə azca duz ataraq bişirib, çürüdür, torbaya töküb süzmək üsulu ilə alırlar.

***Qurut.*** Qış azuqəsi olan qurutu şorla qatığın qarışığından hazırlayırlar. Qurutaşı hazırlayan zaman qurut "əngənək" adlanan ləyənin içərisində əzilir. Əngənək taxta və saxsıdan hazırlanmış dərin ləyəndir. Qurut üçün xüsusi nəzərdə tutulan əngənəyi hazırlayarkən dulusçu əlinin dörd barmağını qabın içərisinə çəkir. Barmaqlar arasında qalan boşluqda ləyənin içərisində çıxıntılar alınır ki, bu da qurutu yaxşı əzmək üçündür.

***Pendir.*** Pendirin bir çox növləri olsa da, Naxçıvanda, əsasən, bir növ pendir hazırlanır. Südün növ və tərkibindən asılı olaraq pendirin çıxarı və tamı fərqli olur. Ən çox üstünlük keçi südündən hazırlanan pendirə verilir. Pendirin keyfiyyətində heyvanların hansı otlaqda otlaması da əsas şərtdir. Naxçıvanda Nehrəm pendiri adla deyildiyi kimi, Bakıda da Naxçıvan pendiri yüksək qiymətləndirilir.

Pendir hazırlamaq üçün bu gün mağazadan alınan hazır mayadan istifadə edilir. Evdə hazırlanan mayanın əsasını heyvan qursağı təşkil edir. Yuyulub təmizlənmiş qursaq asılaraq qurudulur. Şüşə bankaya qursaq, iki-üç tikə qənd, az miqdarda buğda və ya noxud atılır. Bir qədər duz əlavə edilir. Bir neçə gündən sonra maya hazır olur. Mayanı süzüb sərinə qoyur, qursağı isə yuyub yenidən qurudub, ondan bir neçə dəfə istifadə edirlər.

Pendir ilboyu sevilən ərzaq kimi qiymətləndirilir. Ona görə də, süfrədə yeməklərdən sonra az miqdarda pendir yeyilməsi məsləhətdir. Əvvəllər olmasa da, indi Naxçıvanda bəzi ailələrdə saçaqlı pendir də hazırlanır. Həmin pendir, adətən, üzsüz süddən alınır. Motala tökülüb "göyərdilir" və bu "çəçil" adlanır. Çəçil hazırlamaq üçün üzlü və üzsüz süd ocağın üzərinə qoyulur. İçərisinə maya atılır. Süd qızdıqca ayrılan suyu götürürlər. Sonda qazanda xəmirə oxşar bərk maddə qalır. Həmin bərk maddəni taxta üzərində xəmir kimi bir qədər yoğururlar. Sonra əldə saç kimi uzadaraq suyunun çəkilməsi üçün dik dayanmış taxta üzərinə qoyurlar. Bundan sonra üzərinə duz əlavə edirlər.

Süd məhsullarından hazırlanan məmulatlardan bu gün də mətbəximizdə geniş istifadə olunur.

**Zaleh NOVRUZOV**

### Naxçıvan Muxtar Respublikası üzrə 2017-ci ilin dekabr ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Kəngərli rayonu | 748533 | 112034 | 112709 | 100,6 |
| 2. | Şahbuz rayonu | 587849 | 98633 | 99203 | 100,6 |
| 3. | Ordubad rayonu | 1176350 | 178151 | 178526 | 100,2 |
| 4. | Sədərək rayonu | 298339 | 39003 | 39079 | 100,2 |
| 5. | Culfa rayonu | 1072073 | 176395 | 176571 | 100,1 |
| 6. | Şərur rayonu | 2319750 | 330719 | 330957 | 100,1 |
| 7. | Babək rayonu | 2311102 | 390709 | 390912 | 100,1 |
| 8. | Naxçıvan şəhəri | 4508504 | 655683 | 655749 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 13195860 | 2197381 | 2506380 | 114,1 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **26218360** | **4178708** | **4490086** | **107,5** |

### Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2017-ci ilin dekabr ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 5735,0 | 429,0 | 429,0 | 100,0 |
| 2. | Şərur rayonu | 2683,5 | 190,0 | 190,0 | 100,0 |
| 3. | Babək rayonu | 2119,0 | 150,0 | 150,0 | 100,0 |
| 4. | Ordubad rayonu | 1132,0 | 80,0 | 80,0 | 100,0 |
| 5. | Culfa rayonu | 1453,0 | 102,8 | 102,8 | 100,0 |
| 6. | Kəngərli rayonu | 737,0 | 52,0 | 52,0 | 100,0 |
| 7. | Şahbuz rayonu | 610,0 | 43,0 | 43,0 | 100,0 |
| 8. | Sədərək rayonu | 412,0 | 29,0 | 29,0 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 14028,5 | 1262,6 | 1344,7 | 106,5 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **28910,0** | **2338,4** | **2420,5** | **103,5** |

**Qeyd:** Dekabr ayında texniki itki nəzərə alınmaqla daxil olan 28 milyon 910 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 338 min 400 manat olmuş, cəmi 2 milyon 420 min 500 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 103,5 faizini təşkil edir.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 21